DOI: https://doi.org/10.36719/2663-4619/117/79-82

**Sonaxanım Kərimova**
Azərbaycan Milli Xalça Muzeyi
https://orcid.org/0009-0009-4915-1620
UOT 746-
son.art.92@mail.ru

# Azərbaycan Tarix-Diyarşünaslıq muzeylərinin kolleksiyasından - xurcun

## Xülasə

Xurcunlar Azərbaycan xalqının qədim toxuculuq və xalçaçılıq ənənələrinin mühüm nümunələrindən biridir. Əsasən köçəri və kənd həyat tərzində istifadə olunan bu məmulatlar həm funksional, həm də estetik xüsusiyyətləri ilə seçilir. Xurcunlar yun, pambıq, ipək kimi təbii materiallardan kilim və palaz texnikası ilə toxunur, üzərində müxtəlif simvolik naxışlar – qarmaqlı, pilləli, kilimgülü və yaylıq gülü naxışları təsvir olunur. Bu naxışlar xalqın mifoloji düşüncəsini və həyat tərzini əks etdirir. Muzeylərdə qorunan xurcun nümunələri Azərbaycan tətbiqi sənətinin yaşadılması, araşdırılması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.
***Açar sözlər:*** *muzey, xurcun, tətbiqi sənət, etnoqrafiya, toxuculuq, naxış, məişət əşyası*

**Sonakhanim Karimova**
Azerbaijan National Carpet Museum
https://orcid.org/0009-0009-4915-1620
UOT 746-
son.art.92@mail.ru

# From the Collection of the Azerbaijani History and Local Lore Museums – Khurcun

## Abstract

Khurjuns are significant examples of Azerbaijan’s ancient weaving and carpet-making traditions. Primarily used in nomadic and rural lifestyles, they combine both functional and aesthetic purposes. Woven from natural materials like wool, cotton, and silk using kilim and palas techniques, khurjuns feature symbolic patterns such as hooked, stepped, kilim flower, and scarf flower motifs that reflect the people's mythological worldview. The preservation of khurjun examples in museums plays a crucial role in sustaining, studying, and transmitting Azerbaijani applied art to future generations.
***Keywords:*** *khurjin, applied art, ethnography, weaving, ornament, household item*

## Giriş

Azərbaycan xalçaçılıq sənəti qədim tarixə malik olmaqla, xalqımızın zəngin mədəni irsinin ən önəmli qollarından biridir. Bu sənət yalnız döşəmə və divar örtükləri olan xalçalarla məhdudlaşmır, eyni zamanda müxtəlif məişət təyinatlı xalça məmulatlarının – məfrəş, xurcun, heybə, yəhərüstü, çul, taxtüstü və digər əşyaların – hazırlanmasını da əhatə edir. Tarix boyunca həm funksional, həm də estetik tələbatı ödəyən bu məmulatlar, Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında əvəzsiz yer tutmuşdur. Xüsusilə köçəri və kənd həyat tərzinin ayrılmaz hissəsi olan bu əşyalar, toxuculuq sənətinin yüksək texniki səviyyəsini və xalqın estetik zövqünü əks etdirir.

Azərbaycanın müxtəlif bölgələrində qorunan qədim xurcun nümunələri bu sənət irsinin zənginliyini və bölgələrə xas toxuma ənənələrinin fərqliliyini ortaya qoyur (Əsədova, t.e.).

Xurcunlar həm xalqın gündəlik həyatının ayrılmaz hissəsi olmuş, həm də Azərbaycan mədəniyyətinin maddi və mənəvi dəyərlərini nəsildən-nəslə ötürən sənət nümunələrindən birinə çevrilmişdir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Onların müasir dövrdə muzey kolleksiyalarında qorunması və tədqiqi, xalq tətbiqi sənətinin yaşadılması və gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət daşıyır.

**Tədqiqat**

Azərbaycanda xovlu və xovsuz xalçalarla yanaşı hələ qədim zamanlardan etibarən məişətdə istifadə etmək üçün müxtəlif xalça məmulatlarıda istehsal olunurdu. Bir çox hallarda xalça məmulatları əvvəlcə müxtəlif növ xovsuz xalça texnologiyasının köməyi ilə, daha sonra inkişaf etdikcə xovlu xalça texnologiyasının köməyi ilə toxunulur (Muradov, 2014).

Xalça və xalça məmulatların hazırlanması xüsusi diqqət və incəlik tələb edir. Xalça və xalça məmulatların hazırlanmasının əsas mərhələlərindən biri də ipliklərin boyanma mərhələsidir. XIX əsrin II yarısına qədər hazırlanan xalça və xalça məmulatların rənginin davamlılığının əsas səbəblərindən biri də həmin dövrlərdə ipliklərin boyanmasında təbii boyaqlardan istifadə olunması idi. Ümumilikdə ipliklərin boyanma prosesi dörd mərhələdə olurdu birinci mərhələdə ipliklərin boyanmaya hazırlıq prosesidir. Buraya ipliyin yuyulması, yağlardan təmizlənməsi və ağardırılmasıdır. İkinci mərhələ boyaqların hazırlanmasıdır. Buraya boyaq istifadə olunan bitkilərin yığılması daxildir. Bitkilərin yiğilməsının xüsusi vaxtları olurdu. Həmin vaxtlarda yığılan bitkilərdə boyaq maddələri çox olurdu bu da ipliklərin boyanması üçün əlverişli şərait yaradırdı. Boyanma mərhələsi üçün ipliklər kələflənməli idi. Çox vaxt boyamamışdan qabaq iplikləri zəy məhluluna salırdılar. Üçüncü mərhələdə ipliklər boyanırdı. Dördüncü və sonuncu mərhələdə boyanmanın ən vacib texnoloji mərhələrindən boyanın möhkəmləndirilməsi idi.

İpliklərin boyanmasında su da önəmli rolu oynayırdı. Suyu əsasən göldən, çaydan, quyudan, yağış suyundan və ya qar suyundan götürürdülər (Voronkov, 1944).

Xalça məmulatlarının istehsalında yun, pambıq, ipək saplarla yanaşı qamış çubuğundan, eləcə də, quru ağac budaqlarından da istifadə edilmişdir.

Məfrəş, xurcun, heybə, taxtüstü, yəhərüstü, duz qabı, çul, örkən, çömçədan, sicim, yun corablar, pərdələr və s. kimi xalça məmulatlarının bir çoxu hal-hazırda da bəzi şəhər və kəndlərimizdə toxunulur.

Azərbaycanın maddi-mədəni irsinin mühüm nümunələrindən biri də xalq tətbiqi sənətinin incilərindən sayılan xurcunlardır.

Xurcun – Azərbaycan xalqının zəhmət, sənət və estetik dünyagörüşünün toxunmuş obrazıdır. Bu əşya sadəcə yük daşımaq üçün deyil, həm də bir dövrün həyat tərzini, mədəniyyətini və zövqünü əks etdirən sənət əsəridir. Xurcunlar xüsusilə köçəri həyatın, kənd məişətinin və xalçaçılıq ənənələrinin ayrılmaz hissəsi olmuşdur (Azərbaycan Milli Xalça Muzeyi, 2022).

Xurcunlar əsasən müxtəlif yükləri daşımaq üçün istifadə olunmuşdur. Keçmişdə təkcə kənd təsərrüfatında deyil, ticarət və köç həyatında da əvəzsiz rol oynamışdır.

Ənənəvi xurcunlar xovsuz toxuma texnikası ilə hazırlanırdı. Xurcunların bəzədilməsində isə xalqın mifoloji təsəvvürlərini əks etdirən motivlərə – günəş, nar, sufi rəmzlərinə tez-tez rast gəlinir. Bu da onların sırf funksional deyil, həm də ideoloji mənalar daşıdığını göstərir.

Xurcunlar əsasən qoyun, keçi yunundan, pambıqdan hazırlanmış, müxtəlif rənglərlə boyanmış iplikdən, xovsuz və xovlu xalça texnikası ilə toxunur, bəzən də qotazlarla bəzədilir. İki gözdən və onları birləşdirən ara hissədən ibarət olan bu əşyalar adətən zəngin naxışlarla tərtib olunur.

Xurcunun ağızı xurcunbağı ilə bağlanır. Belə ki, xurcunun gözəkləri içərisindən keçən, ucları qotazlı bağ dartılmaqla xurcunun ağzı bağlanır (Aliyeva, 1988).

Müxtəlif ölçülərdə, lakin müəyyən ölçü çərçivəsində toxunan xurcunlara heybə, qavaca, tər və s. adlar da verilir. Çiyin xurcunu adından da məlum olduğu kimi, çiyinə salınan orta ölçülü xurcunlara deyilir. İri ölçülü xurcunlar adətən yük və ya minik heyvanlarının belindən aşırılan, əsasən kənd təsərrüfatı məhsulları və s. daşımaq üçün istifadə olunur. Keçmişdə yaxın və uzaq səfər zamanı xurcun və heybədə azuqə daşınardı.

Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən diyarşünaslıq muzeyləri (Şəki, Quba, Qazax, Lənkəran və s.) öz kolleksiyalarında yüzlərlə qədim xurcun nümunələrini saxlayır. Hər bir eksponatın mənşə yeri, toxunma texnikası, istifadə materialları və naxış xüsusiyyətləri sənədləşdirilərək elmi əsaslarla qorunur (Abdullayeva, 1971).

Xurcunlar Azərbaycan xalqının keçmiş həyat tərzini, zövqünü və estetik düşüncəsini yaşadan unikal sənət nümunələridir. Onların diyarşünaslıq muzeylərində qorunması gələcək nəsillərə bu irsin çatdırılmasında mühüm vasitədir. Gənc tədqiqatçılar və sənətsevərlər bu eksponatlar vasitəsilə xalq sənətinin incəliklərini öyrənə bilirlər.

Diyarşünaslıq muzeylərində qorunan xurcunlar həm sənətkarlıq baxımından dəyərli, həm də etnoqrafik və tarixi baxımdan əhəmiyyətli eksponatlardır. Onların tədqiqi və gələcək nəsillərə ötürülməsi Azərbaycan mədəniyyətinin yaşadılması və inkişafı üçün zəruridir.

Belə xurcunlardan biri də Gəncə Tarix-Diyarşünaslıq Muzeyində saxlanılan yun materialdan vəı 59x121 sm ölçüllərdə hazırlanmışdır. Bu xurcun nəfis naxışları ilə diqqəti cəlb edir. Xurcun iki bala haşiyə, bir ana haşiyə və ara sahədən ibarətdir. Ara sahə ilə ana haşiyənin üzərində olan naxışlar eynidir. Burada qarmaqlı elementlər qrupuna daxil olan romb formalı "qarmaqlı" naxışları təsvir olunub. Bu naxış əsasən Gəncə-Qazax xalça və xalça məmulatlarında geniş istifadə olunur. Ara səhədə "S" formalı naxış da təsvir olunub. Hansı ki, Bu naxış Qobustan kilimlərinnin ayrilmaz elementi kimi geniş istifadə olunur. Eyni zamanda bu naxışa "Paşalı" kilimlərində də rast gəlmək olar (Mammadova, 2017).

Qarmaqlı elementlərin ən sadə forması "S" hərfini xatırladan elementdi. Müxtəlif mənbələrdə bu işarənin mənası haqqında müxtəlif fərziyyələr deyilir. Güman etmək olar ki, "S" formalı elementlər həyat və abadlıq simvolu olan suyu ifadə edir. Azərbaycan dilində su sözünün birinci "S" hərfi nəzərdə tutulmur. "S" şəkli Azərbaycanın bir çox rayonlarında toxunan xovsuz və bəzən də xovlu xalçaların üzərində olan quşların qanadlarında, ya da quyruqlarında təsvir edilir. Demək olar ki, quşların özü də müəyyən mənada su əlamətini daşıyır. Hesab etmək olar ki, qarmaqlı elementlər qədim yunan naxışlarının təsiri nəticəsində meydana gəlmişdir (Kərimov, 2022).

Qarmaqlı elementləri xalq arasında "qıynağı", "qıvrım" və ya "quyrum" da adlandırırlar. Müxtəlif formalı elementlərdən qarmaqlılar daha qədimdir (Kərimov, 2022).

Azərbaycan xalçalarında və xalça məmulatlarında mürəkkəb formalı qarmaqlı elementlərin, xüsusən Qazax qrupuna daxil olan xalça elementlərinin sadələşmiş formalarına Cənubi Qafqaz, Ukrayna və Baltik dənizi sahillərində yaşayan xalqların incəsənətində də təsadüf etmək olar.

Qarmaqlı elementlərin bəzi formaları kilim ornamentlərini xatırladır. Qarmaqlı elementlər Quba-Şirvan və Gəncə-Qazax xalçalarında daha çox yayılmışdır.

Qarmaqlı elementlər qrupundan olan "heyvan" adlı naxışın içərisində pillələlər elementlər qrupuna daxil olan "Kilimgülü" naxışı təsvir olunur.

Bir neçə sınıq xətlərlə gəzmələnmiş və bir neçə kiçik kvadratlarla əhatələnmiş elementlər "pillələlər" adlandırılır. Xalça kompozisiyasında "pillələlər" əsasən, doldurucu elementlər kimi işlədilməklə bərabər, bəzi hallarda sərbəst olaraq, yəni təklikdə təkrar olunmaqla, ara sahə kompozisiyasının əsas elementlərini təşkil edə bilər (Kərimov, 2022).

"Pillələlərə" xalq arasında "kilimgülü" də deyilir ki, bu da kilimin, yəni xovsuz xalçaların sonralar əmələ gəlmiş xovlu xalçalara təsiri olduğunu və ya xalçaların bəzəklərində keçmiş ənənələrin davam etdiyini sübut edir.

Bala haşiyədə romb formalı "Yaylıq gülü" naxışı təsvir olunub. Xalça və xalça məmulatlarında işlədilən romb, kvadrat və düzbucaqlı formalı naxışlar çox vaxt doldurucu element rolunu oynayır (Kərimov, 2022).

Bu xurcunun orta hissəsi palaz texnikası ilə toxunulub. Burada palaz zolaqlarının sulu zolaqlar növü təsvir olunmuşdur. Sulu zolağı palaz sənətinin ikinci inkişaf dövrünə aid edilir.

Xurcunların bir çoxunun kompozisiya tərtibatında xalçalarda olduğu kimi haşiyələr və ara sahədən ibarət olsa da bəziləri yalnız ara sahədən ibarət olur. Belə xurcunlardan biri də Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır. Bu xurcunda iki tərəfdə eyni naxışlar fərqli rənglərdə təsvir olunub. Xurcunun tərəfləri kilim texnikasında, orta hissəsi isə palaz texnikasında toxunulub. Bu xurcun da həm dekorativ xüsusiyyəti, həm də texnikası isə özünəməxsus toxuculuq nümunəsidir (Heriz.ru., n.d.).

## Nəticə

Azərbaycan xalçaçılıq sənəti minilliklər boyu formalaşaraq xalqın zəngin mədəniyyətini, estetik zövqünü və gündəlik həyat tərzini özündə əks etdirən mühüm tətbiqi sənət sahəsinə çevrilmişdir.

Araşdırmamızdan belə bir nəticəyə gəlmək olar ki, xurcunlar yalnız yükdaşıma vasitəsi olmaqla kifayətlənməyib, həm də simvolik və bədii-estetik mənalar daşıyır. Onların bəzədilməsində istifadə olunan qarmaqlı, pilləli, yaylıq gülü, kilimgülü kimi naxışlar Azərbaycan xalqının mifoloji dünyagörüşünü, təbiətə olan münasibətini, su, günəş, həyat və bolluq simvollarını əks etdirir. Bu naxışlar xalçaların regionlara görə fərqlənən ornamentik ənənələrini də əks etdirməkdədir. Xurcunların toxunma texnikaları – kilim, palaz və xovlu xalça texnologiyasına əsaslanaraq toxunulması, onların hazırlanmasında istifadə olunan yun, pambıq, ipək və hətta qamış kimi materiallar, həmçinin təbii boyaq maddələrinin tətbiqi, bu sənətin yüksək texniki səviyyədə olmasını sübut edir.

Muzey kolleksiyalarında qorunan qədim xurcun nümunələri bu mədəni irsin gələcək nəsillərə ötürülməsində mühüm vasitə kimi çıxış edir. Bu eksponatlar təkcə toxunma texnikaları və naxış sistemlərini deyil, həm də müəyyən dövrün sosial-iqtisadi və mədəni reallıqlarını özündə əks etdirir.

Azərbaycanın müxtəlif bölgələrində qorunan bu sənət nümunələrinin sistemli şəkildə tədqiqi, sənədləşdirilməsi və ictimaiyyətə tanıdılması xalq tətbiqi sənətinin qorunması və təbliği baxımından böyük əhəmiyyət kəsb edir. Bu sahədə muzeylərin, elmi tədqiqat mərkəzlərinin və sənətkarların birgə fəaliyyəti zəruridir.

Qeyd etmək lazımdır ki, xurcunlar Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin canlı daşıyıcısı olmaqla, həm funksional, həm də estetik dəyərləri birləşdirən sənət əsərləridir. Onların qorunması, tədqiqi və yeni nəslə öyrədilməsi xalqın tarixə, sənətə və mədəni irsə olan münasibətinin bariz nümunəsidir. Bu sənət irsi həm milli kimliyin mühüm ifadəsi, həm də dünya mədəni irsinin dəyərli hissəsi kimi gələcək nəsillərə ötürülməlidir.

## Ədəbiyyat

1. Əsədova, X. (t.e.). *Rusiya Etnoqrafiya Muzeyində və Dövlət Ermitajında qorunan Azərbaycan xalçaları*.
2. Kərimov, L. (2022). *Azərbaycan xalçası*. Xalq Bank.
3. Muradov, V. (2014). *Qazax-Borçalı bölgəsinin xalçaçıları*. Bakı.
4. Azərbaycan Milli Xalça Muzeyi. (2022). *Xalça məmulatları: Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından*. Bakı.
5. Aliyeva, K. (1988). *Bezvorsovyye kovry Azerbaydzhana*. Baku.
6. Abdullayeva, N. (1971). *Kovrovoye iskusstvo Azerbaydzhana*. Baku.
7. Mammadova, U. (2017). In search of Bahmanli carpets. *Azerbaijani Carpets*.
8. Voronkov, N. V. (1944). *Krasheniye sherstyanoy kovrovoy pryazhi*. KOIZ.
9. Facebook. (n.d.). [Fotoşəkil paylaşımı]. https://www.facebook.com/photo.php?fbid=456073457797797&id=447787611959715&set=a.456073431131133
10. Heriz.ru. (n.d.). *Krasheniye shersti*. http://www.heriz.ru/krashenie-shersti.html
11. Facebook – Berpa Mərkəzi. (n.d.). https://www.facebook.com/berpamerkezi
12. Vikipediya. (n.d.). *Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyi*. https://az.wikipedia.org/wiki/Xa%C3%A7maz_TarixDiyar%C5%9F%C3%BCnasl%C4%B1q_Muzeyi